**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№348/2** **03 oktyabr 2022-ci il**

**“Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş”də dəyişiklik edilməsi barədə**

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasnda (2021-2030-cu illər)” həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin icrasının təqvim planının XI. “Auditdə şəffaflığın artırılması, haqsız rəqabət və dempinqə qarşı mübarizə” bölməsinin 9-cu “Auditor seçiminə dair müsabiqə prosedurlarının təkmilləşdirilməsi, o cümlədən qeyri-dəyər meyarlarının aktuallaşdırılması” və Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.10-cu “Auditor seçiminə dair müsabiqə prosedurlarının təkmilləşdirilməsi” bəndlərinə müvafiq olaraq Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/2 nömrəli qərarı ilə bəyənilmiş “Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş”də dəyişiklik edilməsi barədə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən təqdim edilmiş materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş”də edilmiş dəyişiklik bəyənilsin (Metodik göstərişin yenilənmiş versiyası əlavə olunur).
2. Palatanın Aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, iki həftə müddətində “Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş”in yenilənmiş versiyasının tətbiq edilmək məqsədi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, Azərbaycan Respublikası Mərkəzi Bankına, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına və auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, “Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş”in yenilənmiş versiyasının auditorların ixtisasartırma kursunun tədris proqramına daxil edilməsi təmin edilsin.
4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş”in “Audit.Qanunvericilik və normativ sənədlər” toplusunun nəşr ediləcək 11-ci cildinə daxil edilməsini təmin etsin.
5. Bu metodik göstərişin ölkənin müvafiq idarə və təşkilatları tərəfindən audit sahəsində müsabiqə və auditor seçiminin təşkilində istifadə edilmək üçün Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**